Xalq qəzeti 2021.- 10 mart.- S.7.

# YAP yeni uğurlara doğru inamla addımlayır

***Martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayı ölkəmizin tarixində mühüm hadisə kimi qeyd edilməlidir. Qurultayın böyük əhəmiyyət kəsb etdiyini Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin tədbirdəki videoformatda çıxışı zamanı da gördük. Dövlət başçısı rəhbərlik etdiyi partiyanın ümummilli lider Heydər Əliyevin şəxsiyyəti ətrafında yarandığını, ölkəmizin inkişafı üçün böyük işlər gördüyünü qeyd etdi. Eyni zamanda, qurultayda Azərbaycanın Vətən müharibəsində şanlı qələbə qazandığı, bölgədə yeni vəziyyət yarandığı və bu reallığa uyğun addımlar atılmasının vacibliyi vurğulandı.***



Təbii ki, Yeni Azərbaycan Partiyası ölkəmizin tarixində danılmaz xidmətlər göstərib. Regionun ən monolit təşkilatı olan YAP-ın adı ulu öndər Heydər Əliyevlə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılıb, onun siyasi təcrübəsi, biliyi, xidmətləri, vətənpərvərliyi və öz xalqına sadiqliyi Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirib. Qurultaydakı nitqində bu barədə danışan Prezident qeyd etdi ki, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü də xüsusi önəm daşıyır. Çünki o vaxt ermənilər nə qədər çalışsalar da, Naxçıvanda öz istəklərinə nail ola bilmədilər. Halbuki Qarabağdan sonra onların növbəti hücum hədəfi Naxçıvan idi. Heydər Əliyev və onun ətrafında birləşmiş insanlar Naxçıvanı qoruya bildilər, düşməni yerində oturtdular.

Dövlət başçısı partiyanın VI qurultayından keçən üç ilin ölkəmiz və bölgəmiz üçün həlledici olduğunu bildirdi. Bu illər ərzində ölkə həyatında bir sıra mühüm hadisələr baş verib. Ən önəmlisi isə ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Prezident İlham Əliyev dedi: “Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik… Bizə tam, mütləq qələbə lazım idi və bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq”.

Bundan əlavə, ötən 3 il ərzində məhz YAP-ın, onun sədri İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə böyük siyasi, iqtisadi və sosial islahatlar aparılıb. Ölkədə prezident və parlament seçkiləri keçirilib. Bu seçkilərdən sonra başlanmış islahatlar daha bir mərhələ irəliləyib və bu gün Azərbaycan genişmiqyaslı islahatlar ölkəsi kimi məşhurlaşıb. Azərbaycan ictimaiyyəti bu islahatların çox böyük əhəmiyyətini özünün gündəlik həyatında, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görür. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bu təşəbbüslərin, islahatların böyük rolu aydın görünür.

Dövlət lideri nitqində qeyd etdi ki, məhz 2018-ci il prezident seçkilərindən sonra bəyan edilmiş proqram icra olunur və ardıcıllıqla hədəflərimizə çatırıq. Ərazi bütövlüyümüzün bərpası məsələsi qarşıya birinci dərəcəli vəzifə kimi qoyulmuşdu və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyulmuşdu. Biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq: “Bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur. Yeni bir vəziyyət yaranmışdır, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır”.

Bu isə, təbii ki, istər-istəməz həmin ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir. Ona görə son vaxtlar bizim siyasətimizlə bağlı dünyada gedən düzgün təhlillər və bizim fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir. İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaradıb. Artıq bütün bölgədə yeni əməkdaşlıq imkanları yaranıb. Eyni zamanda, uzunmüddətli sülhün təmin edilməsi və ölkəmizin yeni dövrə qədəm qoyması üçün çox önəmli şərtlər, imkanlar yaranıb.

İnanırıq ki, bu imkanlar da ölkəmizin ən monolit siyasi təşkilatı olan YAP-ın rəhbərliyi ilə uğurla reallaşdırılacaq. Biz yerli təşkilatlar da çalışacağıq ki, YAP sədrinin qarşıya qoyduğu vəzifələri şərəflə yerinə yetirək.

***Arzuman MURADLI,***
***YAP Səbail rayon təşkilatının sədr müavini, iqtisadiyyat üzrə fəlsəfə doktoru***